# Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib

İyulun 11-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi «Qurani-Kərim»dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.





Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə mərasimdə çıxış edərək müqəddəs «Qurani-Kərim»in nazil olduğu mübarək Ramazan ayı münasibətilə açılan iftar süfrəsinə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi, bunun islam dininə ehtiram və milli-mənəvi dəyərlərimizə verilən yüksək qiymət olduğunu vurğuladı. Şeyxülislam Azərbaycanda sabitlik, inkişaf, birlik, vicdan azadlığı və tolerantlığın hökm sürməsinin ulu öndər Heydər Əliyevin təməlini qoyduğu müdrik siyasətin bəhrəsi olduğunu və bu siyasəti Prezident İlham Əliyevin də uğurla davam etdirdiyini bildirdi. Ölkəmizin beynəlxalq imicinin daha da möhkəmləndiyini vurğulayan Şeyxülislam respublikamızda gedən sürətli sosial-iqtisadi inkişafı və nümunəvi tolerantlığı beynəlxalq birliyin də etiraf etdiyini dedi. Bu yaxınlarda ölkəmizin evsahibliyi etdiyi I Avropa Oyunlarının yüksək səviyyədə keçdiyini qeyd edən şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub möhkəmləndirilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da xüsusi xidmətlərini diqqətə çatdırdı.

İftar süfrəsində Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Aleksandr, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Millix Yevdayev ölkəmizdə dinlərarası dialoqun və millətlərarası münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etdilər.

Mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə təbriklərini çatdırdı, xalqımıza sülh və xoşbəxtlik arzuladı. Hər il gözəl ənənəyə çevrilən iftar mərasimini ölkəmizdəki din dövlət münasibətlərinin təzahürü adlandıran dövlət başçısı əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu siyasətin müstəqillik dayaqlarımızı daha da möhkəmləndirdiyini bildirdi.

Dövlət başçısı Azərbaycanın dünyəvi dövlət olduğunu, tarixdə ilk dəfə ölkəmizdə keçirilən I Avropa Oyunlarının yüksək səviyyədə baş tutduğunu qeyd etdi.

«Azərbaycanın gələcəyi parlaqdır və bizim uğurlarımıza hec bir qüvvə təsir edə bilməz»,-deyən Prezident İlham Əliyev bir daha qarşıdan gələn Ramazan bayramı münasibətilə dünya müsəlmanlarını və xalqımızı təbrik etdi.

Sonda şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevə milli-mənəvi dəyərldərimizə verdiyi yüksək qiymətə görə bir daha minnətdarlıq etdi.

Sonra iftar sürəsi açıldı.

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası

**(Əvvəli 1-ci səhifədə).**

Cənab Prezident kənd təsərrüfatının inkişafından danışarkən qeyd etmişdir ki, sahənin inkişafı üçün bu il çox önəmli addımlar atılmışdır. Bu il Prezident tərəfindən bir neçə fərman imzalanmışdır ki, bu da kənd təsərrüfatının inkişafına xidmət göstərir. Məsələn, taxılçılıqda məhsuldarlıq təxminən 20 faiz artmışdır. Yəni hər hektardan taxıl istehsalı 20 sentnerdən 30 sentnerə çatmışdır. Dövlətin dəstəyi ilə fermer təsərrüfatları yaradılır, meliorasiya tədbirləri, lazım olan bütün aqrotexniki tədbirlər həyata keçirilir. Strukturlaşma prosesi gedir və şəffaflıq təmin edilir. Gələcəkdə daha ciddi işlərin görülməsi nəzərdə tutulur.

İlham Əliyev daha sonra çıxışında ordu quruculuğundan, beynəlxalq vəziyyətlə əlaqədar həyata keçirilən tədbirlərdən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərdən danışmışdır. Ölkə başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsbət irəliləyişin olmadığını söyləmiş, ancaq məsələ uzandıqca Ermənistandakı vəziyyətin daha da pisləşməyə doğru uzandığını söyləmişdir. Belə getsə gələcəkdə Ermənistan kimi ölkə bəlkə də dünya xəritəsində heç qalmayacaq da. Günahkar isə bugünki kriminal diktatura rejimidir. Əksinə olaraq Azərbaycan daim inkişaf edir, güclənir. Sadəcə olaraq Ermənistan xarici maliyyə, hərbi və siyasi dəstək hesabına Azərbaycan torpaqlarını işğal altında saxlayır. Lakin gün gələcək ki, Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcəkdir.

Cənab ölkə başçısı giriş nitqinin sonunda Avropa Oyunları ərəfəsində və oyunlar zamanı Azərbaycana qarşı informasiya müharibəsinin ən şiddətli mərhələyə qədəm qoymasından və görülən tədbirlər nəticəsində bütün cəhdlərin heçə endirildiyi barədə də danışdı.

İclasda cənab Prezidentin nitqindən sonra maliyyə naziri Samir Şərifov, rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov çıxış edərək ilin birinci 6 ayı ərzində işlədikləri struktur bölmələri üzrə gördükləri işlərdən danışmışlar.

İclasın sonunda cənab ölkə başçısı yekun nitqi söyləmiş və qeyd etmişdir ki, biz iqtisadi artımın yüksək tempini ilin sonunadək saxlamalıyıq. İlham Əliyev çıxışında daha sonra ilin qalan hissəsində ölkə qarşısında duran ən mühüm vəzifələrdən danışmışdır. Xüsusilə kənd yollarının təmiri, ölkədə qazlaşmanın davam etdirilməsi, bu il yaranan "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin qarşısında duran mühüm vəzifələrin həlli yollarından, içməli su və kanalizasiya, suvarma ilə bağlı layihələrin icrası, kənd təsərrüfatı potensialından maksimum istifadə edilməsi və sair kimi məsələlərə toxunmuşdur. Çıxışda sənayeləşmənin davam etdirilməsi, tikinti materialları ilə özümüzün tam təmin olunması, yeni iş yerlərinin yaradılması, ümumiyyətlə, qeyri-neft sektorunun inkişafına bundan sonra diqqətin artırılması kimi məsələlər də unudulmamışdır. Eyni zamanda iclasda ayrı-ayrı nazirliklərdə, struktur bölmələrində buraxılan səhvlər də diqqətdən kənarda qalmamışdır.

Nöqsanlar ayrı-ayrılıqda diqqətə çatdırılmış, bütün icra işlərinin qanunun tələbləri səviyyəsində aparılması tələb olunmuşdur.

**Nadir ATAKİŞİYEV.**